# Daşkənddə Azərbaycan haqqında kitab çap olunub

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə Daşkənddə özbək dilində "Olovlar Yurti - Ozarbayjon" ("Odlar Yurdu Azərbaycan") adlı kitab çap edilib.



Mədəniyyət Mərkəzindən bildirilib ki, müəllifi tanınmış tədqiqatçı-jurnalist Şarofiddin Tolaqanov olan nəşrdə Azərbaycanın dövlətçilik tarixi, xalqımız, mədəniyyətimiz, incəsənətimiz, ədəbiyyatımız, milli bayramlarımız, hüzn günləri, Ümummilli Lider Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva, mədəniyyət mərkəzi olan Şuşa, Qarabağ, Azərbaycan-Özbəkistan tarixi-mədəni əlaqələri, Ermənistanın apardığı siyasətin Qafqazda və bütün dünyadakı mənfi təzahürləri və s. haqqında geniş məlumatlar verilib. Kitabın Daşkənddə təqdimatı və Özbəkistanın aparıcı kitabxanalarına, ali təhsil ocaqlarına verilməsi nəzərdə tutulur.

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 3 oktyabr (№ 216).- S.15.